ƏTRAF MÜHİT VƏ TƏBİİ EHTİYATLAR KOMİSSİYASI

BİRİNCİ TOPLANTI

HESABAT MƏRUZƏSİ

TÜRKDİLLİ ÖLKƏLƏRDƏ SƏHRALAŞMAYA QARŞI MÜBARİZƏ

I. GİRİŞ

1. TÜRKPA üzvü ölkələri zəngin təbii sərvətlərə və inkişaf etmiş sənaye sahələrinə malik olan dövlətlərdir. Məlum olduğu kimi, təbii sərvətlərin mənimsənilməsi zamanı müəyyən ekoloji problemlər ortaya çıxır və uzun illərdən bəri yığılıb qalmış ekoloji problemlər vaxtında öz həllini tapmadığı üçün üzv ölkələrdə ətraf mühit həddindən artıq çirkləndirilmişdir. Hazırda TÜRKPA üzvü ölkələrində həllini təcili tələb edən bir sıra ekoloji problemlər mövcuddur. Bu problemlər arasında ən aktual olanlardan biri də **torpaqların eroziyaya uğraması və şoranlaşmasıdır ki, başqa bir adla bunu səhralaşma da adlandırırlar.**

2. Birləşmiş Millətlər Təşkilatının ətraf mühit və inkişaf üzrə 1992-ci ildə Rio de-Janeyroda keçirilən konfransı BMT-nin Səhralaşma ilə Mübarizə haqqında Konvensiyasının hazırlanmasını tövsiyə etmişdir. Konvensiya 1994-cü ildə hazırlanmışdır və dünyanın bir çox ölkələri onu imzalamışdır. Türkdilli ölkələr öz siyasətlərində səhralaşma ilə mübarizəyə böyük önəm verirlər. Səhralaşma ilə Mübarizə Konvensiyası regional və milli fəaliyyət planları vasitəsilə həyata keçirilir. Bu fəaliyyət planları milli institutlar, QHT-lər və insanların birgə iştirakını təmin edə bilər ki, bu da uzunmüddətli siyasət və davamlı inkişafa səbəb olar. Konvensiya sosial-iqtisadi inkişaf və təbii ehtiyatların qorunması üçün əsas kimi hesab edilə bilər.

3. Qazaxıstan, Qırğızıstan və Türkiyə özlərinin Milli Fəaliyyət Proqramlarını qəbul ediblər. Milli və Regional Fəaliyyət Proqramlarının əsas məqsədi xüsusilə: səhralaşma və quraqlıq ilə bağlı ölkələrin prioritetlərinin müəyyən edilməsi; regional səylərə töhfə verilməsi; maraqlı tərəflər arasında əməkdaşlığın inkişaf etdirilməsi; səhralaşma ilə bağlı ictimai marağın artırılması; bütün səviyyələrdə inkişaf planlarının və strategiyaların inteqrasiyası; bütün təşkilatların,

qeyri-hökumət təşkilatlarının və yerli əhalinin iştirakının təşviq edilməsi; bu sahədə müxtəlif tədbirlərin həyata keçirilməsi üçün maliyyə mənbələrinin ayrılmasıdır.

4. Birləşmiş Millətlər Təşkilatının mənbələrinə uyğun olaraq səhralaşma və quraqlıq yer üzündə sahəsi 4 milyard hektardan çox ərazini, habelə 110 müxtəlif ölkələrdə yaşayan 1,2 milyard insanı təhdid edir. Türkdilli ölkələrin coğrafi mövqeyi, topoqrafiyası, iqlim şəraiti, qədim tarixi, eləcə də dinamik əhali strukturları səhralaşma və quraqlıq məsələsinə yüksək həssaslıqla yanaşmaya ehtiyac olduğunu göstərir.

5. Hesabat səhralaşma ilə mübarizədə TÜRKPA üzvü olan ölkələrin dövlət siyasəti haqqında qısa məlumatı özündə cəmləşdirir. Hesabat üzv ölkələrin müvafiq nazirliklərinin məlumatlarına əsaslanır.

II. SƏHRALAŞMA İLƏ BAĞLI ANLAYIŞLAR

6. BMT-nin Səhralaşma ilə Mübarizə haqqında Konvensiyasına görə (bundan sonra UNCCD) səhralaşma "İqlim dəyişikliyi və texnogen amillərin, o cümlədən müxtəlif amillər nəticəsində, quraqlıq, yarımsəhra və quru sub-rütubətli sahələrdə torpaqların deqradasiyasıdır". Səhralaşmanın əsasən quraq torpaqlarda daha dağıdıcı olduğu aydın olur; Bura demoqrafik partlama və ekoloji stress ilə birlikdə torpaq, su, bitki və digər resursların deqradasiyası daxildir. Təxminən 4 milyard hektar ərazi və ya yer səthinin 1/3-i səhralaşma təhlükəsi altında, 250 milyondan çox adam birbaşa təsir altındadır və 100-dən çox ölkədə bir milyard adam risk altındadır. İyirmi dörd milyard ton münbit torpaq hər il yox olur.

7. Qlobal torpaq deqradasiyası ilə bağlı beynəlxalq narahatçılığının artması nəticəsində səhralaşmanın iqtisadi, social və ətraf mühit aspektləri baxımından bütün dünyada ciddi problem olduğu qəbul edilmişdir. Bu baxımdan, Birləşmiş Millətlər Təşkilatı səhralaşma problemləri ilə bağlı konkret tədbirlər görməyə başlamışdır. 1972-ci ildə Stokholmda keçirilən Ətraf Mühitlə bağlı ilk Konfrans bu məsələ ilə bağlı dönüş nöqtəsi olmuş və 1977-ci ildə keçirilən Səhralaşma ilə bağlı Konfransla müşayiət olunmuşdur. Konfrans tərəfindən təsdiq edilmiş "Səhralaşma ilə Mübarizə üzrə Fəaliyyət Planı" səhralaşma və quraqlıqla mübarizə üzrə qabaqcıl və ən aparıcı beynəlxalq təşəbbüslərdən biridir.

8. Konvensiyanın hazırlanması üçün 1992-ci ildə Birləşmiş Millətlər Təşkilatının Ətraf Mühit və İnkişaf Konfransı (UNCED) tərəfindən Hökumətlərarası Danışıqlar Komitəsi təsis edilmişdir. BMT-nin Səhralaşma ilə Mübarizə üzrə Konvensiyası 17 iyun 1994-cü ildə qəbul edilmişdir. Buna görə də 17 iyun Səhralaşmaya qarşı mübarizə günü elan edilmişdir. 191 ölkənin tərəfdar olduğu Konvensiya 26 dekabr 1996-cı ildə qüvvəyə minmişdir.

9. **Səhralaşmanın səbəbləri:** Səhralaşmaya gətirib çıxaran insan fəaliyyəti əsasən aşağıdakı kənd təsərrüfatı fəaliyyətləri ilə bağlıdır: eroziyanın qarşısını alan bitki örtüyünü məhv edən həddindən artıq otarılma; torpağın məhsuldarlığını aşağı salan həddindən artıq becərilmə və ağacların məhv edilməsi ilə torpağın korlanmasına səbəb olan meşələrin qırılması. Aşağı suvarma təcrübəsi şoranlığı yüksəldir və bəzən böyük gölləri qidalandıran çayları qurudur. İnsan fəaliyyətinin intensivləşməsi qlobal istiləşməyə səbəb olan istixana effekti yaradır. Quraqlıq ərazilərin isə iqlim dəyişikliyinə təsiri xüsusilə önəmlidir.

TÜRKPA ÜZV ÖLKƏLƏRİNDƏ SƏHRALAŞMA

AZƏRBAYCAN

10. BMT-nin Səhralaşma ilə Mübarizə haqqında Konvensiyası Azərbaycan Respublikasının 24 aprel 1998-ci il tarixli Qanunu ilə təsdiq edilmişdir. Azərbaycanda səhralaşma prosesi əsasən dağətəyi, düzənlik və ovalıq ərazilərdə təbii, xüsusən antropogen amillərin təsiri nəticəsində baş verir. Bu ərazilərdə yağıntıların orta illik miqdarı 150-400 mm arasında dəyişir, səthi buxarlanma yağıntının miqdarından 3-4 dəfə artıqdır. İqlim yarımsəhra və quru bozqır yarımtipinə aiddir.

11. Səhralaşma prosesi Kür-Araz ovalığı üçün daha səciyyəvidir. Burada son illər əhalinin artması, ərazidə qaçqın və köçkünlərin məskunlaşması, kənd təsərrüfatı, o cümlədən heyvandarlığa olan tələbatın çoxalması, həmçinin təbii qaz və elektrik enerjisinin çatışmaması ilə əlaqədar torpaq və bitki örtüyünün ekstensiv istifadəsi nəticəsində antropogen səhralaşma prosesi güclənmişdir. Kür-Araz ovalığında səhralaşma prosesi Şirvan düzündə daha güclü gedir. Burada aparılan tədqiqatlar göstərir ki, bitki və torpaq örtüyünün səhralaşmasının (və ya deqradasiyası) istiqasməti və intensivliyini yaradan səbəblər ərazinin ekoloji şəraiti (relyefi, bitki örtüyü, torpağı) və antropogen amillərin müxtəlifliyi ilə əlaqədardir. Bu baxımdan ərazini aşağıdakı sahələrə bölmək olar:

    1. Kür çayı boyu tuqay meşələrinin deqradasiyası prosesi, orada olan meşələrin məhv edilməsi, hədsiz mal-qara otarılması və meşə torpaqlarından kənd təsərrüfatı bitkiləri altında istifadə edilməsi ilə əlaqədar baş vermişdir. Bu ərazidə səhralaşma quraqlaşma, bataqlaşma və bəzən şor(an)laşma istiqəmətində gedir.

    2. Regionun ovalıq hissəsində suvarılan ərazilərdə səhralaşma prosesini yaradan əsas səbəblər müasir tələblərə cavab verməyən kollektor-drenaj şəbəkəsi və suvarma işləri ilə əlaqədardır. Bu ərazidə səhralaşma prosesi torpağın şorlaşması və bataqlaşması istiqamətində gedir.

    3. Regionun dağətəyi hissəsində səhralaşma prosesi bitki örtüyünün pozulması, məhv edilməsi, hədsiz mal-qara otarılması, aqrotexniki qaydalara riayət olunmaması ilə əlaqədardır. Bu ərazidə səhralaşma prosesi, səthi və yarğan eroziyası, suvarma aparılan sahələrdə isə irriqasiya eroziyası, bəzən şorlaşma və sürüşmə hadisəsinin yaranması istiqamətində gedir.

12. Qlobal Ətraf Mühit Fondu (QEF) və BMT-nin İnkişaf Proqramının (BMTİP) dəstəyi ilə 2006-2009-cu illərdə "Torpaqların birgə və davamlı istifadəsinin idarə olunması" layihəsi həyata keçirilmişdir. Hazırda QEF və BMTİP tərəfindən "Azərbaycanın Böyük Qafqaz regionunda torpaq və meşələrin davamlı idarə olunması" layihəsi çərçivəsində torpaqların və meşələrin davamlı idarə edilməsi üzrə qanunvericiliyin təhlili və müvafiq təlimlərin həyata keçirilməsi davam etdirilir.

13. Ölkədə davamlı inkişaf prinsiplərinə əsaslanan milli proqramlar, o cümlədən eroziyaya məruz qalmış torpaqların bərpası məqsədilə bir sıra fəaliyyətləri nəzərə alan və dövlət büdcəsi tərəfindən maliyyələşdirilən "Ekoloji cəhətdən dayanıqlı sosial-iqtisadi inkişafa dair", "Meşələrin bərpa edilməsi və artırılmasına dair" dövlət proqramları, heyvandarlığı mütərəqqi üsullarla inkişaf etdirmək yolu ilə məhsuldarlığı yüksəltmək, yay-qış otlaqlarının və

biçənəklərin mühafizəsini gücləndirmək, onlardan istifadənin səmərəsini artırmaq və biomüxtəlifliyin qorunub saxlanılmasını təmin etmək məqsədi ilə "Yay-qış otlaqlarının, biçənəklərin səmərəli istifadə olunması və səhralaşmanın qarşısının alınmasına dair" (2004-2010-cu illər), kənd təsərrüfatı məhsullarının istehsalının artırılmasını stimullaşdırmaq və əhalinin ərzaqla təminatını yerli istehsal hesabına daha da yaxşılaşdırmaq məqsədi ilə "Əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair (2008-2015-ci illər)", "Regionların sosial-iqtisadi inkişafına dair (2014-2018-ci illər)" dövlət proqramları həyata keçirilməkdədir.

14. BMT-nin Səhralaşmaya qarşı mübarizə Konvensiyasının "10 illik Strateji Planı"na uyğun olaraq səhralaşma ilə mübarizə üzrə Milli Fəaliyyət Planı hazırlanır və 2015-ci ildə qəbul olunması nəzərdə tutulur.

QAZAXISTAN

15. Səhralaşma ilə mübarizə Konvensiyası 7 iyul 1997-ci il "BMT-nin Səhralaşma ilə Mübarizə Konvensiyasının təsdiq edilməsi haqqında Qazaxıstan Respublikasının Qanunu ilə təsdiq edilmişdir. Qazaxıstanda su çatışmazlığının olduğu ərazilər üçün ciddi səhralaşma prosesi xarakterikdir. Hazırda ölkə ərazisinin üçdə iki hissəsi səhralaşmanın müxtəlif növlərindən əziyyət çəkir.

16. Qazaxıstanda səhralaşmanın təbii və antropogen səbəbləri vardır. Bu ölkədə səhralaşmanın başlıca növləri BMT SMK tərəfindən təsdiq edilmiş meyarlara əsasən: bitki deqradasiyası, su və külək eroziyası, şoranlaşma və qeyri-münbitləşmə (torpaqda torfun əmələ gəlməsi prosesinin əksi), torpaq, yeraltı və yerüstü su mənbələrinin çirklənməsi, torpaq və su mənbələrinə texnogen (insan tərəfindən) müdaxilə ilə müəyyən edilir.

17. Bu əsrin ən böyük problemlərindən biri Aral dənizinin ekoloji böhranıdır. Səhranın tam mərkəzində yerləşən Aral ətraf regionlar üçün əliverişli iqlim və ekoloji şərait yaratmaqla, dənizə bitişik geniş ərazidə nəmişliyin tənzimlənməsi, cənub səhralarından əsən isti küləklərdən müdafiəni təmin edir. Dəniz iri balıqçılıq, ovçuluq, nəqliyyat və rekreasiya əhəmiyyətinə malikdir.

18. Qazaxıstan hökuməti səhralaşma ilə bağlı ictimaiyyətin maarifləndirilməsinin və təhsilinin artırılması məqsədilə bir sıra fəaliyyətlər həyata keçirir. Səhralaşma və quraqlıq problemlərinə həsr olunmuş tədbirlərə dair məlumatlar KİV sektorunda geniş şəkildə yayımlalanır.

19. Qazaxıstan vətəndaş cəmiyyətləri üçün maliyyə dəstəyinin payını BMTİP-in/ QƏMF (Qlobal Ətraf Mühit Fondu) kiçik qrantlar proqramı vasitəsilə artırmışdır. 2012 və 2013-cü illərdə QƏMF-5 mövzularından "Torpaq deqradasiyası" Kiçik Qrantlar Proqramı (KQP) üçün $830.000 ayrılmışdır. 1997-ci ildən bəri Qazaxıstan QƏMF və KQP ümumi məbləği $4.300.000 olan 256 layihəni dəstəkləmişdir.

20. Torpağın vəziyyətinin qiymətləndirilməsi və monitorinqi ilə əlaqədar ümumi metodologiyanı əks etdirən dövlət proqramı 2) bir sıra fəaliyyətləri nəzərə alan və dövlət büdcəsi tərəfindən maliyyələşdirilən eroziyaya məruz qalmış torpaqların abadlaşdırılması üzrə 2010-15 ci illər səhralaşmaya dair dövlət mübarizə proqramı 3) Şimali Qazaxıstanda Bilik Dəstək Mərkəzlərinin tədris sisteminin daxil olduğu İqlim dəyişikliyində davamlı torpaq idarəetməsi

4) davamlı iqtisadi inkişaf naminə keyfiyyətli təhsil almaq imkanını təmin edərək, təhsil, insan kapitalının inkişafında rəqabət qabiliyyətinin yaxşılaşdırılmasına yönəlmiş Qazaxıstan Respublikasının 2011-2020-ci il Dövlət Təhsil İnkişaf Proqramı 5) Qazaxıstan əhalisinin məlumatlandırılması təbii resursların mühafizəsi ilə vətəndaş cəmiyyəti norma və etiketlərinin təkmilləşdirilməsinə dair 2014-2015-ci illər ətraf mühit təhsil proqramı 6) dünya əhalisində ayrılmaz birik torpaq, hava, flora, fauna, insani əlaqələr və dünya ilə qarşılıqlı asılılıq yaratdığı 2010-2016-cı illər Ətraf mühit təhsil proqramı kimi bir sıra proqramlar həyata keçirilir

21. Qazaxıstan siyasət proqramı və BMT-nin səhralaşmaya qarşı mübarizə konvensiyası çərçivəsində Qazaxıstan Respublikasının öhdəliklərinə müvafiq olaraq, BMT-nin QƏMF-in (Qlobal Ətraf Mühit Fondu) dəstəyi ilə Səhralaşma ilə mübarizə üzrə milli fəaliyyət planının təkmilləşdirilməsi adlı layihəni həyata keçirmişdir. Eyni zamanda nazirliklərarası konsultativ qərarverici işçi qrupu yaradılmışdır.

22. Ölkə elm, texnologiya və bilik sahəsində Qazaxıstan Respublikasında ekoloji şərait göstəricilərinin elmi əsasları kimi bir çox elmi inkişaf makroiqtisadi layihələrini qəbul etmişdir.

23. 1996-cı il 30 aprel tarixində Qazaxıstan Respublikası Prezidentinin sərəncamı ilə təsdiq edilmiş Ekoloji təhlükəsizlik konsepsiyası keçid dövrünün ekoloji prioritetlərini, xüsusilə özəlləşdirmənin ekoloji problemlərini, ekoloji qanunvericilik sisteminin yaradılması üçün lazım olan məsələləri, dövlət nəzarəti və ətraf mühitin idarə edilməsinin iqtisadi mexanizmlərinin araşdırılması, ekoloji monitorinqi tənzimləyir.

QIRĞIZISTAN

24. Qırğızıstan Respublikası Konvensiyaya (UNCCD) 1997-ci ilin dekabr ayında qoşulmuşdur. Konvensiya Qırğızıstan Respublikasının Joqorku Keneşi (Parlament) tərəfindən 1999-cu ildə ratifikasiya edilmişdir. Qırğızıstan Respublikasının Milli Fəaliyyət Planı (MFP) 2000-ci ilin dekabr ayında təsdiq edilmişdir. MFP-nin sektorlararası əhatə dairəsi mövcuddur – ölkənin geostrateji mövqeyi, sosial-iqtisadi vəziyyəti, səhralaşmanın anilləri və ölçüləri, prioritet fəaliyyətlər, layihələr və proqramlar, qanunverici çərçivə və MFP-nin həyata keçirilməsinin sxemləri.

25. Səhralaşma ilə Mübarizə üzrə Milli Mərkəz (SMMM) Qırğızıstan Respublikası Kənd Təsərrüfatı, Su Resursları və İcra Sənayesi Nazirliyinin Suvarma ilə bağlı Qırğız Tədqiqat İnstitutunun nəzdində yaradılmışdır. SMMM milli fəaliyyət planının hazırlanması, bununla bağlı milli əlaqələndiricinin müəyyənləşdirilməsi və ölkədə səhralaşma ilə mübarizə üzrə fəaliyyətlərin koordinasiya edilməsindən məsuldur.

26. Qırğızıstan Respublikası üç coğrafi zonaya bölünür: (i) Suvarılan kənd təsərrüfatı torpaqları və yaşayış olan dəniz səviyyəsindən 400-1200 metr yüksəklikdə yerləşən dağ və dağətəyi zonalar; (ii) dəniz səviyyəsindən 1,200 və 2,600 metr arasında yerləşən otlaqlardan və meşələrdən ibarət orta dağ zonası; və (iii) dəniz səviyyəsindən 2,600 metrdən yüksəkdə yerləşən subalp və alp çəmənlikləri, qayalıqlar, yüksək seqmentlər, il boyu qar və buzlaqlardan ibarət zona. Qırğızıstanda torpağın deqradasiya prosesinə əsasən torpaq eroziyası, şoranlaşma və bataqlaşma, kimyəvi çirklənmə və bitki örtüyünün məhv edilməsi aiddir. Hər bir zonanın

əlverişsiz iqtisadi fəaliyyətlə bağlı onun geofiziki və iqlim xüsusiyyətləri ilə şərtlənən təbii deqradasiya problemləri mövcuddur.

27. Qırğızıstanda torpaqların deqradasiyaya uğramasının təcili qabaqlayıcı tədbirlər tələb əsas prioritet sahələri:
    • yamac torpaqlarında suvarma və yağış nəticəsində su eroziyası, şoranlaşma;
    • düzənliklərdə bataqlaşma – məhsuldar torpaqların idarə edilməsində problemlərə səbəb olur;
    • otlaqların həddən artıq otarılması, heyvanlar üçün yemin azalması və yem keyfiyyətinin pisləşməsi – otlaq torpaqlarının idarə edilməsində problemlərə səbəb olur;
    • yanacaq üçün meşələrin qırılması və nəticəsində külək, su eroziyası və torpaq sürüşmələri – meşə və yuxarı su hövzələrinin idarə edilməsində problemlərə səbəb olur.

28. Proqramların inkişaf etdirilməsi baxımından, aşağıdakı pilot layihələrin müəyyən edilməsi nəzərdə tutulur:
    • Torpaq ehtiyatlarının səmərəli istifadəsi və qorunması. Burada süsusi diqqət yuxarı su hövzələrində torpaq və su ehtiyatlarının idarə olunmasının inteqrasiyasına veriləcək.
    • Dünya bazarında, ölkələr arasında və ölkə daxilində əsas bazarlarda istehsalın mövcud həcmi barədə məlumat verən, qiymətlər və istehsal baxımından fermerlər tərəfindən asanlıqla giriş edilə bilən, kənd təsərrüfatı məhsulları istehsalçılarına dəstək üçün Mərkəzi Asiyada milli və regional bazar kəşfiyyat informasiya sisteminin yaradılması.
    • Torpaqların deqradasiyaya uğramasına nəzarəti gücləndirmək üçün resurslar yaratmaq məqsədi ilə Böyük İpək Yolunun Qırğızıstan bölməsinə aid hissəsində eko-turizmin idarə edilməsi üçün kənd icmaların potensialının artırılması.
    • Kənd təsərrüfatı torpaqları, otlaqlar monitorinqi (və inventar) sisteminin inkişafı və su istifadəsi;
    • Meşəsalma, qoruyucu məqsədlə meşəsalma və kənd yerlərində odun üçün alternativ yaratmaq;
    • İqtisadi bazanın, təhsil və mədəniyyətin təkmilləşdirilməsi və kütləvi informasiya vasitələri ilə kənd əhalisinin aqroekoloji məlumat üçün çıxış əldə etməsi məqsədilə Qırğızıstan kənd periferiyasında İnternet bağlantısının yaradılması;
    • Məhsul suvarılması rejiminin müəyyənləşdirilməsində yeni metodların tətbiqi üçün araşdırmaların artırılması və suyun artıq, səmərəsiz istifadəsi, su kəsilməsi və torpaqların şorlaşmasının qarşısının alınması;
    • Mərkəzi Asiyada dağ otlaqlarının davamlı idarə edilməsi üçün GEF maliyyələşdirilməsi ilə regional proqramın inkişaf etdirilməsi.

TÜRKİYƏ

29. Türkiyə Səhralaşmaya Qarşı Mübarizə üzrə BMT Konvensiyasına 31 avqust, 1998-ci ildə qoşulmuşdur. Katibliyin milli səviyyədə işi, beynəlxalq əlaqələr və kordinasiya Eroziya və Səhralaşmaya Qarşı Mübarizə (ESQM) üzrə Baş Direktoratlıq tərəfindən həyata keçirilir.

30. Eroziya və Səhralaşmaya Qarşı Mübarizə üzrə Baş Direktoratlıq 2011-ci ildə Su və Meşə Təsərrüfatı Nazirliyi çərçivəsində yaradılmışdır. Baş Direktoratlığın vəzifələrinə daxildir: torpağın qorunması və təbii ehtiyatların inkişafı, səhralaşmaya və torpaq eroziyasına qarşı mübarizə, uçqun, sürüşmə və daşqına nəzarətlə bağlı plan və layihələrin həyata keçirilməsinin təkmilləşdirilməsi və nəzarət, bu fəaliyyətlərin layihə əsaslı dəstəklənməsi, bu məsələlər və

fəaliyyətlərlə bağlı siyasət və strategiyanın müəyyən olunması, müvafiq qurum və təşkilatlarla əməkdaşlıq və kordinasiyanın təmin edilməsi, milli və regional səviyyədə su hövzələrinin inkişafının planlaşdırılması, siyasət və strategiyaların müəyyənləşdirilməsi, universitet və elmi-tədqiqat institutları ilə birlikdə tədqiqat və inkişaf fəaliyyətinin həyata keçirilməsi, təhsil, nəşr, təşviqat və s. kimi fəaliyyətlərlə məşğul olmaq.

31. Türkiyədə səhralaşma və eroziyanın təsirinə ən çox məruz qalan ərazilər Konya hövzəsi, Aras hövzəsi və İğdir regionlarıdır. Eroziya hər hövzədə və regionda rast gəlinə bilər. Risk xəritələri bu nöqteyi-nəzərdən hazırlanmışdır. Türkiyədə 59% kənd təsərrüfatı, 64% otlaq və 54% meşə sahələrində eroziya davam edir.

32. Səhralaşmaya qarşı mübarizənin bu kontekstində səhralaşmanın meyar və göstəriciləri hazırlanmaqdadır və səhralaşma prosesinin Səhralaşmanın Müşahidəsi Sistemi Lahiyəsi tərəfindən izlənilməsi gözlənilir. Ərzaq, Kənd Təsərrüfatı və Heyvandarlıq Nazirliyi, Meşə Təsərrüfatı Baş Direktoratlığı, TUBITAK, UNCCD, FAO, TICA, GEF, qeyri-hökumət təşkilatları kimi qurumlar və özəl sektor səhralaşma və eroziyaya qarşı mübarizədə milli və beynəlxalq layihə tərəfdaşları kimi sadalana bilər. Bu baxımdan səhralaşmanın müşahidəsi çox əhəmiyyətlidir. Eroziya və Səhralaşmaya Qarşı Mübarizə üzrə Baş Direktoratlığı Ar–Ge and Model Layihələrlə səhralaşma və torpaq eroziyasına qarşı mübarizə ilə məşğul olur. Bundan əlavə, əyalət təşkilatı və güclü təşkilati komanda ilə Meşə Təsərrüfatı Baş Direktoratlığı eroziyaya qarşı mübarizədə mühüm funksiyanı üzərinə götürür və Baş Direktoratlıqla birlikdə bir çox layihələr öyrənilməkdədir.

33. Ekspertlər Türkiyədə səhranın olmadığını, lakin səhralaşma prosesinə daxil olan ərazilərin olduğunu bildirmişdir. Səhralaşma yalnız Türkiyə üçün deyil, həmçinin üç qitə ilə bağlı narahatlıq baxımından Anadolunun qonşu regionları üçün də maraqlıdır. Bu səbəbdən Eroziya və Səhralaşmaya Qarşı Mübarizə üzrə Baş Direktoratlıq Afrika və Asiya ilə bağlı layihələr üzrə işini təkmilləşdirir. Bu baxımdan FAST layihəsi, Afrikada Səhralaşma, Torpaq Deqradasiyası və Susuzluqla Mübarizə İnkişaf Layihəsi çərçivəsində Niger-Türkiyə Meşə Dostluq Layihəsi, Fələstində Uşaq Layihəsi, Qırğızıstanda Su Hövzəsinin Bərpası Layihəsi davam etdirilir. Türkiyənin malik olduğu təcrübə Səhralaşma, Torpaq Deqradasiyası və Susuzluqla Mübarizə İnkişaf Layihəsi tərəfindən Afrikanın ən az inkişaf etmiş ölkələri ilə paylaşılır.

34. Son zamanlar Türkiyənin səhralaşma və torpaq eroziyasına qarşı mübarizə səyləri ekspertlər tərəfindən araşdırılmışdır və "Quraq və Yarımsəhra Ərazilərdə İqlim Dəyişikliyinə Davamlı Meşələrin Salınması üzrə Kitabça" hazırlanmışdır. Bu baxımdan 2014-cü ildə Səhralaşma ilə Mübarizə üçün Milli Fəaliyyət Sənədi hazırlanmış və Milli Fəaliyyət Proqramı yenilənmiş və işə salınmışdır. Bundan əlavə, yaxşı təcrübənin hesabat və paylaşılması üçün LADA layihəsi mühüm əhəmiyyət kəsb edir. Ölkənin potensialının, eləcə də bu məsələlər haqqında dünyada Türkiyənin görünmə dərəcəsinin artırılmasında UNCCD Katibliyi ilə əlaqələr və "Türkiyədə Səhralaşmaya qarşı Mübarizənin Öyrənilməsi" üzrə hesabatlar da çox vacibdir.

TÜRKDİLLİ DÖVLƏTLƏRİN BEYNƏLXALQ ƏMƏKDAŞLIĞI

35. Ətraf mühit problemlərinin həlli kollektiv yanaşma tələb edir, xüsusilə, dövlətlər, özəl və qeyri-hökumət sektorları arasında tərəfdaşlıq səhralaşmaya qarşı mübarizədə birgə tədbirlər

üçün prioritet sahələrin müəyyən olunmasını asanlaşdırır. Bu baxımdan beynəlxalq əməkdaşlıq və əməkdaşlığın beynəlxalq mexanizmlərinin işlənib hazırlanması mühüm amilə çevrilmişdir.

36. 1996-cı ildən qüvvədə olan Səhralaşmaya Qarşı Mübarizə üzrə Birləşmiş Millətlər Təşkilatı Konvensiyası ən mühüm beynəlxalq konvensiya olmaqla, TÜRKPA üzv dövlətlərini beynəlxalq və regional əməkdaşlığın iştirakçılarına çevirmişdir.

37. Azərbaycan Konvensiyanın 5-ci (Mərkəzi və Şərqi Avropa), Qazaxıstan və Qırğızıstan isə 2-ci (Asiya) bölməsində yer tuturlar. Bu ölkələrin Konvensiya ilə beynəlxalq əməkdaşlığı bu bölmələrə müvafiq olaraq tənzimlənir.

38. Türkiyə Konvensiyanın Şimal Aralıq Dənizi Regional Tətbiq Bölməsi adlı 4-cü bölməsində yer tutur. Türkiyənin Konvensiya ilə beynəlxalq əməkdaşlığı bu bölməyə əsasən tənzimlənir. Türkiyə digər Aralıq dənizi ölkələri, Yunanıstan, İtaliya, Portuqaliya, İspaniya və digərləri ilə birlikdə MEDRAP, MEDCOASTLAND və CLEMDES layihələrində iştirak etmişdir. Bu əməkdaşlıq vasitəsilə Türkiyə öz milli potensialını, şəbəkəsini və səhralaşma və konvensiya üzrə müvafiq qurumların təcrübəsini artırır.

39. BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) Mərkəzi Asiya (SEC) üzrə Subregional Ofisi Türkiyə hökumətinin dəstəyi ilə rəsmi olaraq 2006-cı ilin avqust ayında Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Türkiyə, Türkmənistan və Özbəkistana xidmət göstərmək məqsədilə Türkiyənin Ankara şəhərində yaradılmışdır.

40. Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin (CICA) çətiri altında Türkiyə CICA-ya milli töhfəsi kimi Konyada "beynəlxalq təlim mərkəzinin" yaradılmasını təklif etmişdir. Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Türkiyə və Özbəkistan bu Müşavirənin üzvləridir. Bu təklif Müşavirənin 12 sentyabr 2012-ci ildə Qazaxıstanda keçirilmiş Xarici İşlər Nazirlərinin Dördüncü Toplantısında qəbul olunmuşdur.

41. **Türkiyə 16-27 sentyabr 2013 tarixlərində Namibyanın paytaxtı Windhoekdə təşkil edilən 11-ci Tərəflər Konfransında 2015-ci ildə keçiriləcək BMT-nin Səhralaşma ilə Mübarizə haqqında Konvensiyasının Tərəflər Konfransına (UNCCD-COP 12) ev sahibliyi etmək arzusunu dilə gətirmiş və Türkiyənin ev sahibliyi etməsinə qərar verilmişdir. 12-ci Tərəflər Konfransı 12-24 Oktyabr 2015 tarixində Ankarada keçiriləcəkdir.**

42. 4 iyun 2014-cü ildə Türkiyə Meşə və Su Məsələləri Nazirliyi və FAO səhralaşmaya qarşı mübarizə də daxil olmaqla, meşə təsərrüfatı məsələlərinin dəstəklənməsi məqsədilə yeni Anlaşma Memorandumu imzalamışdır. Bu müqavilənin çətiri altında bir sıra layihələr həyata keçirilir. «Mərkəzi Asiya və Qafqazda suayırıcılarının idarə edilməsi üzrə potensialın artırılması» Səhralaşma və Eroziyaya qarşı Mübarizə Baş Direktoratlığının əlaqələndirici agentlik olduğu layihələrdən biridir. TIKA həm texniki, həm də maliyyə cəhətdən bu layihəni dəstəkləyir. Layihə Türkiyə, Azərbaycan, Qırğızıstan, Tacikistan və Özbəkistanda həyata keçirilməkdədir.

43. TÜRKPA üzv dövlətlərinin, xüsusilə, Tərəflərin Müşavirəsi (COP), Konvensiyanın Həyata Keçirilməsinə Nəzarət Komitəsi (CRIC), Regional Fəaliyyət Proqramı (RAP) və Subregional Fəaliyyət Proqramı (SRAP) kimi toplantılarda iştirakı təcrübə qazanmaq və mübadilə aparmaq üçün çox əhəmiyyətlidir. Bundan əlavə, bütün müvafiq qurumların, universitetlərin, vətəndaş cəmiyyəti təşkilatlarının və maraqlı ekspertlərin iştirakı təşviq edilməlidir.

44. Üzv dövlətlər arasında bir sıra beynəlxalq səfərlər, seminar və təlimlər keçirilmişdir. Azərbaycanlı ekspertlər meşə təsərrüfatı məsələlərinin dəstəklənməsi üçün Türkiyəyə səfər etmişlər, hazırda isə Qırğızıstan ərazisində, Tyan Şan-Xan Tenqri dağlarında iştirakçı ölkələrdən olan ekspertlərin birgə hazırladığı planın həyata keçirilməsi üçün Türkiyədən olan nümayəndə heyəti fəaliyyət göstərir.

NƏTİCƏLƏR

45. Türkdilli dövlətlərin Səhralaşmaya Qarşı Mübarizə üzrə Birləşmiş Millətlər Təşkilatı Konvensiyası çərçivəsində əməkdaşlığı TÜRKPA üzvlərinin səhralaşma ilə mübarizəyə effektiv və məqsədyönlü yanaşmasına töhfəsini verəcəkdir.

46. TÜRKPA üzv ölkələri subregional və birgə fəaliyyət proqramları çərçivəsində səhralaşmaya nəzarət üçün səylərini gücləndirə bilərlər. Səhra Araşdırma İnstitutu Mərkəzi Asiya üçün Subregional Tətbiq Əlavəsi üzrə təklif işləyib hazırlamışdır. Bu təklif Cenevrədə İNCD-ə (Səhralaşma üzrə Hökumətlərarası Danışıqlar Komitəsi) təqdim olunmuşdur.

47. Mərkəzi Asiya subregionu Asiya regionunun bir hissəsi hesab oluna bilər. Subregiona beş ölkə daxildir: Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Türkmənistan və Tacikistan. Subregionun bütün ərazisi 3.94mln km^2, əhalisi isə 53.79 mln nəfər təşkil edir.

48. Milli və Regional Fəaliyyət Proqramları səhralaşmanı sürətləndirən amilləri, prioritetləri, regional işlərə töhfəni müəyyənləşdirməyi, ictimaiyyətin səhralaşma məsələlərindən xəbərdar olmasını, dövlətlərin inkişaf planı və strategiyalarına inteqrasiya, məsul qurum və vətəndaş cəmiyyəti təşkilatlarının müəyyən edilməsini və səhralaşma və quraqlıqla əlaqədar məsələlər üçün maliyyə vəsaitlərinin ayrılmasını hədəfləyir.

49. Bu məsələ üzrə qarşılıqlı əməkdaşlıq üçün Türkdilli dövlətlərin çoxnövlü imkanları mövcuddur. Birgə tədbirlər keçirmək və seminar yaxud konfranslar kimi fəaliyyətlər vasitəsilə qarşılıqlı fəaliyyətin genişləndirilməsi xalqların mənafeyi, eləcə də regiondakı maraqları üçün əməkdaşlığı gücləndirəcəkdir.

50. Bu mexanizmlərdən daha səmərəli faydalanmaq üçün Avropa İttifaqı, Mərkəzi Asiya və Aralıq dənizi ölkələri ilə tərəfdaşlığın təşviq edilməsi vacibdir. Xüsusilə, Avropa İttifaqının maliyyə dəstəyi ilə bu sahədə Aİ-nin böyük təcrübəsinin tətbiqi məqsədilə layihələr həyata keçirilə bilər.

51. Üzv ölkələr bir-biri ilə əməkdaşlığın dəqiq yollarını müəyyənləşdirə bilərlər. Problemin tez həlli üçün səhralaşmaya qarşı mübarizənin konkret mexanizminin yaradılması xüsusi əhəmiyyət kəsb edir. TÜRKPA üzv dövlətlərinin üzləşdiyi bir sıra çətinliklər onları səylərini artırmağa və beynəlxalq əməkdaşlıq çərçivəsini təkmilləşdirməyə sövq edəcəkdir.

52. Səhralaşmaya qarşı mübarizədə fərdlərə də mühüm vəzifə düşür. Şimali Afrikadan Mərkəzi Asiyaya doğru səhra ərazilər artan sürətlə genişlənməkdədir və dünyanın 41% ərazisi demək olar ki, səhraya çevrilməkdədir. Odur ki, TÜRKPA üzv dövlətləri öz ətraf mühitləri, ölkələri və bütün dünyada bu məsələylə ciddi şəkildə mübarizə aparmalı və öz meşə, su və ərzaq ehtiyatlarını idarə edərək onlardan müdrikliklə istifadə etməlidirlər.

53. **Türkdilli ölkələrin 12-ci BMT-nin Səhralaşma ilə Mübarizə haqqında Konvensiyasının Tərəflər Konfransında və xüsusilə Parlament Forumunda iştirakı təsirli bir şəkildə təşviq edilməlidir.**

54. **TİKA və bənzəri təşkilatların dəstəyi ilə qeyri-hökumət təşkilatları və iş dünyasının səhralaşma ilə mübarizə fəaliyyətlərində iştirakını təmin etmək və təşviq etmək məqsədiylə platformalar qurulmalı və dəstəklənməlidir.**

55. **Səhralaşma ilə torpaq arasındakı əlaqə nəzərə alınaraq "2015 Beynəlxalq Torpaq ili" çərçivəsində müxtəlif fəaliyyətlər icra edilməlidir.**